

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi uzun müddət ərzində həyatımızın bütün sahələrinin inkişafı üçün əlindən gələni etmişdir. Respublika həyatının elə bir sahəsi yoxdur ki, onun inkişafı Heydər Əliyevin adı ilə bağlı olmasın. Məhdud çərçivə anlayışı Heydər Əliyev üçün yad idi. Onun bütün fəaliyyəti respublikanın hərtərəfli və dinamik inkişafına yönəlmişdi. Böyük öndərin çoxşaxəli fəaliyyətində mühüm yerlərdən birini milli-mənəvi dəyərlərimizin inkişafına diqqət və qayğı tuturdu.*

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

Diqqətəlayiq cəhət burasıdır ki, o bu sahədə ən böyük istəklərinin məhz sovet dövründə, hər şeyin, hətta milli-mənəvi dəyərlərin də süni şəkildə sovetləşdirdiyi, yaxud ruslaşdırdığı dövrdə həyata keçirə bilmişdi. Azərbaycan KP MK-nın birinci katibi işlədiyi zaman Heydər Əliyevin bu istiqamətdə gördüyü işləri, Azərbaycan xalqı qarşısında xidmətlərini saymaqla qurtarmaz. Həmin illərdə Heydər Əliyev Azərbaycanın mədəniyyətini, incəsənətini, ədəbiyyatını, tarixini ittifaq miqyasında yorulmadan təbliğ edirdi.

Çoxcildli «Müasir Azərbaycan dili» dərsliyinin müəlliflərinə dövlət mükafatı verilməsi, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov kimi musiqiçilərə, Süleyman Rəhimov, Mirzə İbrahimov, Rəsul Rza kimi ədiblərə SSRİ-nin ən ali mükafatlarının verilməsi, xalqımızın milli-mənəvi dəyərlərinin inkişafında görkəmli rol oynamış şair, yazıçı və mütəfəkkirlərin yubileylərinin keçirilməsi, Nəsimi, Cəfər Cabbarlı, Nəriman Nərimanov kimi sənətkarlara möhtəşəm abidələr ucaldılması, Azərbaycanın əksər şəhər və rayonlarında tarix-diyarşünaslıq muzeylərinin açılması və bu qəbildən olan bir çox işlər məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi zaman Heydər Əliyevin milli-mənəvi dəyərlərin inkişafı yolunda fəaliyyəti daha geniş vüsət almışdır. Məhz Heydər Əliyevin diqqəti və qayğısı sayəsində müstəqil Azərbaycan Respublikasında milli-mənəvi dəyərlər daha geniş inkişaf etmiş, milli tarixi köklərə qayıdış prosesi güclənmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının ərazisində yerləşən tarix və mədəniyyət abidələri əhəmiyyət dərəcəsinə görə siyahılaşdırılmışdır. Siyahıya daxil edilmiş 6308 tarix və mədəniyyət abidəsi dövlət mühafizəsinə götürülmüşdür. Məlumat üçün deyim ki, Əli Bayramlı şəhərində yerləşən 5 abidə də Nazirlər kabinetinin qərarı ilə dövlət mühafizəsinə götürülmüş abidələrin siyahısına daxil edilmişdir. Bunlardan 2-si respublika əhəmiyyətli, 3-ü yerli əhəmiyyətli abidələr sırasına daxildir.

Qeyd edim ki, hazırda dövlət mühafizəsinə götürülmüş abidələrin siyahısı dəqiqləşdirilir. Şübhə yoxdur ki, bu iş başa çatdıqdan sonra dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələrinin sayı daha çox olacaqdır.

Müstəqillik illərində Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə diqqət və qayğısı yeni məna və məzmun kəsb etmişdir. Tək bircə faktı qeyd etmək kifayətdir ki, Heydər Əliyevdən əvvəlki bir neçə illik xaos müddətində özlərini super demokrat adlandıranlar dilimizin adını dəyişdirmişdilər. «Azərbaycan dili» adının yenidən bərqərar edilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan xalqının çoxəsrlik milli-mənəvi dəyərlərini islam dinindən ayrı təsəvvür etmək olmaz. Heydər Əliyev bu həqiqəti hamıdan yaxşı dərk edir və böyük uzaqgörənliklə mənəviyyatla bağlı olan hər bir işdə islami dəyərlərə əsaslanırdı. Heydər Əliyev keçən əsrin otuzuncu illərində uçurulmuş Bibiheybət məscidini yenidən tikdirməklə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ayrılmaz his-

sәsinә çevrilmiş islami dәyәrlәrә münasibәt nümunәsi göstәrdi. Bu nümunәnin nәticәsidir ki, Azәrbaycanın şәhәr vә rayonlarında, әn ucqar kәndlәrindә belә müasir tәlәblәrә cavab verәn mәscid binaları tikilmişdir.

Heydәr Әliyevin milli-mәnәvi dәyәrlәrә dair ideyaları bu gün respublika Prezidenti İlham Әliyev cәnabları tәrәfindәn lәyaqәtlә davam etdirilir. Cәnab Prezidentin bu ilin ilk yarısında kitabxana, muzey, kino, monumental heykәltәraşlıq abidәlәri, xatirә memorial vә memarlıq komplekslәri haqqında sәrәncamları, ümumiyyәtlә bu gün respublikamızda hәyata keçirilәn dövlәt mәdәniyyәt siyasәti dediklәrimizә әyani sübutdur.

Heydәr Әliyev tәrәfindәn müәyyәn edilmiş milli-mәnәvi dәyәrlәr konsepsiyası icra hakimiyyәtinin başçısı cәnab Mәrdan Camalov tәrәfindәn şәhәrimizdә dә layiqincә hәyata keçirilir. İrili-xırdalı 25 tarix vә mәdәniyyәt abidәsi vardır ki, onların da әksәriyyәti Mәrdan Camalovun şәxsi tәşәbbüsü ilә tәmir olunmuş, әtrafı abadlaşdırılmışdır. Qalan abidәlәrin әsaslı şәkildә yenidәn qurulması üçün layihә-eskiz sәnәdlәri hazırlanmışdır.

Heydәr Әliyev vә milli-mәnәvi dәyәrlәr mövzusunda istәnilәn qәdәr danışmaq olar. Bu çox geniş mövzudur. Hәm dә Azәrbaycan xalqı üçün hәyatı әhәmiyyәti olan bir mövzudur. Heydәr Әliyevin bütün hәyatı boyu bu mәsәlәyә hәdsiz diqqәt vә qayğı göstәrmәsi heç dә tәsadüfi deyil. Millәti millәt edәn bir tәrәfdәn torpağı, iqtisadiyyatıdırsa, digәr tәrәfdәn onun dili, milli-mәnәvi dәyәrlәri vә mәdәniyyәtidir.

**İlyas MİRZӘYEV,**
**Әli Bayramlı Şәhәr Mәdәniyyәt vә Turizm Şöbәsinin müdiri**